

پنجشنبه ۲۰ ربیع الآخر سنه ۱۳۳۷ — ایکنجی سنه دوامیه‌سی — ۲۳ کانون ثانی ۱۹۱۹ سنه نومرو ۹۵

# آذربایجان

گونده‌لک سیاسی، اجتماعی، ادبی، اقتصادی تورک غزته‌سیدر.

آبونه شرایطی:

محل اداره:

## فتنه‌لر قارشوسنده

## شورای وکلاده

## قانون لایحه‌سی

## فتحعلی خان خویسکی حضرتلرینه.

حاجی بکلی عزیز

*"Azərbaycan" qəzetinin 95-ci nömrəsinin 1-ci səhifəsi*

Cümə axşamı, 23 yanvar 1919-cu il, nömrə 95

AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 20 rəbiülaxir sənə 1337. 23 kanuni-sani sənə 1919.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.

Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## FİTNƏLƏR QARŞISINDA

Hökumətimizin və Müttəfiqlər ordusu komandanı general Tomsonun tədbirləri sayəsində Andranikin vəhşiliyi dayandırıldı. Andranik "yar və ənsarına" [dostlarına və tərəfdarlarına] məktublar yazıb, "müharibə" bitdiyini elan edir...

Top və tüfəng hücumları ara verdi. Zənn edilirdi ki, bir qədər qulağımız dincələr, baş-beynimiz rahat olar, qəlbimizin təşvişi sakit olub, yorunuq əsəblərimizin sızıltısı dayanar.

Lakin heyhat! Bu zənni o adam edə bilər ki, daşnakların xilqəti-xüsusiyyələrinin [özünəməxsus xilqətlərinin] təqazası [tələbi] və təbiəti-milliyyələrinin [milli təbiətlərinin] icabatı [gərəyi] olan "niş" vurmaq [sancmaq] xasiyyətlərindən bixəbər ola!

Andraniklərin top və tüfəng hücumlarının arası yenicə kəsilmişdi ki, bu gün özümüzü başqa növ hücumlara məruz qalmış görürük. Bu yeni hücumlar iftira və böhtan hücumlarıdır ki, daşnakların "Vperyod" qəzetəsinin dünənki nömrəsi başdan-ayağa qədər bu iftira və böhtanlarla doludur.

Top və tüfəng ağzından çıxan güllələr, daşnak və əmsalı ağzından çıxan söyüş və yalan sözlərlə əvəz edilibdir. İftira, böhtan və əsassız ittihamlardan ibarət olan bu sözlər, zatən general Tomsona qarşı bir nümayişdir. Yəni, ey general Tomson! Sən ki, bizim andraniklərimizi dayandırmağa məcbur etdin, indi gör Azərbaycan müsəlmanları bizim başımıza nə oyunlar açırlar, nə zülümlər edirlər. Halbuki bunun təqsiri sənin boynuna gəlir, çünki bu işdə ehmallıq edən və Azərbaycan türklərinə "cürət" verən sənsən!

Bugünkü nömrəmizdə tərcümə edilmiş olan Şuşa Erməni Komitəsi nümayəndələrinin "şikayəti", mülahizə edildiyi üzrə, azərbaycanlıların "zülmündən" və general Tomsonun "qeydsizliyindən"dir.

Lakin zənn etmirik ki, bu "şikayətnamə" Müttəfiqlər komandası rəisinə ermənilərin arzu etdiyi təsiri "bəxş" edib də "məzlumların" halına can yandırtsın. Tomsonlar erməni "şikayətlərini" Londra məhafilində [dairələrində] dinləməyirlər ki, inanmağa haqları olsun. Tomsonlar Qafqazdadırlar, işin içindədirlər. Kimin kimdən şikayət etməyə haqqı olduğunu görürlər. Görməsəydilər, andraniklərin

həddini özünə bildirməzdilər.

Azərbaycanın Azərbaycan Hökumətinə tapşırılmasını təsdiq etmiş olan general Tomson, Azərbaycan torpağında həman hökumətin hökm və qanunu icra ediləcəyini bilmirmi ki, ermənilərin "Azərbaycan Hökuməti bizi tərk-silaha məcbur edir" kimi nahaq şikayətlərinə məhəlgüzar olsun [məhəl qoysun]. Əlbəttə, bir dövlətdə ki, bir ünsür iğtişaş və nizamsızlığa mail ola və bu meylini hüsula gətirmək təşəbbüslərinə silah gücü ilə girişə, bu "məğşuş" [hərc-mərclik yaradan] ünsürün müsəddəq [rəsmi, təsdiqlənmiş] hökumət tərəfindən tə'dibə [cəzalandırılmağa] və tərk-silaha məcbur ediləcəyi təbii və qanuni bir əmrdir [işdir].

Azərbaycan torpağında yaşayan ünsürlərin Azərbaycan Hökumətini tanıması və tanımaq istəmədikdə bu əmrə məcbur edilməsi dəxi müvafiqi-qanun və ədalət bir işdir ki, daşnakların: "Azərbaycan Hökuməti bizi itaətə məcbur edir" deyə bu yoldakı şikayətlərinin nə qədər boş və əsassız olduğunu özü-özündən aşkar surətdə bildirməkdədir.

Guya Azərbaycan qoşunu və "müsəlləh [silahlı] tatarlar" səbəbsiz olaraq erməni kəndləri üzərinə hücumlar edib, əhalini qətlü qarət edirlər, deyə şikayətin dəxi ətraflı bir surətdə təhqiqə böyük bir ehtiyacı vardır. Bu təhqiqin nəticəsi meydana çıxıncaya qədər həman "şikayət"lərin bizim gözümüzdə iftira və böhtandan ibarət olacağı da dəlil və əsassız deyildir.

Daşnakların, andraniklər vasitəsilə üzərimizə atılan top və tüfəng güllələrini dəf etmək, bunların iftira və böhtanlarını rədd etmək işindən çox asandır. Çünki ermənilər, cəngavərlikdən artıq böhtan və iftira qurmaq ustadlığı ilə məşhurdular. Odur ki, bu gunə [bu cür] "danoslar" hücumuna və iftiralar "niş"inə [neştərinə, iynəsinə] qarşı qəlbimizi bir o qədər də sıxmayıb Sədinin:

*"Nişi-əqrəb nə əz rə kin-əst*
*İqtizayi-təbiətəş in-əst"*

beyti ilə mütəsəlli ola [təsəlli tapa] bilərik. Lakin bununla belə özümüzü "əqrəb"lərdən qorumaq hər bir cəhətcə borcumuzdur. Çünki bunların "nişi" kin üzü ilə olsun, ya təbiətlərinin iqtizası olsun, insanın canını ağrıdır və əziyyətinə səbəb olur.

*Hacıbəyli Üzeyir*

## FƏTƏLİ XAN XOYSKİ HƏZRƏTLƏRİNƏ

### Gəncə yepiskopunun məktubu

Alişan [şanı uca] Fətəli xan!

Daimi məhəlli-iqamətim [yaşayış yerim] olan Tiflisə gedərkən, ortodoks kilsəsi və onun ruhanilərinə qarşı ibraz etmiş olduğunuz [göstərdiyiniz] lütf və iltifatdan naşi [ötrü] sizə və başında durduğunuz hökumətə ən-səmimülqəlb [səmimi-qəlbdən] təşəkkürati-əmiqəmi [dərin təşəkkürlərimi] izhar etmək cəsarətində bulunuram. Çox təəssüf edirəm ki, macalım olmadığından sizə qarşı səmimi ehtiramımı şəxsən təqdim etmək şərəfindən məhrum oluram.

Allah-taalanın himayəsində olmağınızı istirhamla [arzu etməklə] zati-ali-

lərinizin əbdi-mütisi [itaətkar bir qulu] varam dövlətli, səadətli əfəndim.

*Gəncə yepiskopu Feofilakt*
*21 (8) yanvar 1919.*
*Mətni ilə düzdür.*

## ŞURAYİ-VÜKƏLADA [NAZİRLƏR KABİNETİNDƏ]

* Rəisi-vükəla [Baş nazir] həzrətlərinin hökumət və Parlamana qanun layihələri idxal etmək haqqındakı məruzəsini dinləyərək qət edilmişdir: Qanun təsdiq edilsin.

* Maarif naziri həzrətlərinin Rəisi-vükəlada olan məbləğdən Bakı Realnı məktəbi təmiratına pul buraxmaq haqqındakı məruzəsindən sonra qət edilmişdir: Kiçik Şuranın 14 dekabr 1918-inci sənə qətnaməsi mövcibincə [əsasında] Birinci Realnı məktəbi təmiratı üçün 8850 rublə 35 qəpik buraxılmış para, Rəisi-vükəlada olan məbləğdən Maarif nazirinə verilsin.

* Ticarət və Sənaye naziri həzrətlərinin xüsusi zəvat [şəxslər] ilə bağlanan müqavilənamələrin zərərdən naşi [zərər etdiyinə görə] puç edilməsi barəsindəki məruzəsi nəticəsində qərar verilmişdir: Ticarət və Sənaye Nəzarətinə tapşırılsın, xüsusi zəvatla əqd edilən [bağlanan] müqavilənamələrin həqiqi tərəflərinə diqqət edilsin. Tərəfi-müqabil müqavilənamə maddələrini pozacaq olarsa, rəhni [təminatı] xəzinə nəfinə [xeyrinə] daxil olması qət edilmişdir. O zəvat ki, həqiqətən zərər çəkmişlər, onlar barəsində xüsusi məruzələr pişnihad [təqdim] edilməlidir.

* Maliyyə naziri həzrətlərinin Bakı-İran bankı güşadı [açılması] haqqındakı məruzəsini istima etdikdən [dinlədikdən] sonra işbu əlavə ilə qəbul edilməsi təhtiqərara alınmışdır:

1. "Başqa şəhərlər" sözündən sonra "Azərbaycan Cümhuriyyəti" əlavə edilsin.

2. "Məhəllər" sözünü "Azərbaycan şəhərləri" sözləri ilə dəyişməli.

3. "Maliyyə naziri" sözündən sonra "Azərbaycan Cümhuriyyəti" sözləri əlavə edilsin.

10. "Rəsmi orqan" sözündən sonra "Azərbaycan Cümhuriyyəti" sözləri əlavə edilməlidir.

14. Maddə A. "Ruslar" sözünü "Azərbaycanlılar" kəlməsinə dəyişməli.

14. Maddə B. "Payi-səhm, qiymətli kağız" sözlərindən sonra "Azərbaycan Cümhuriyyətində həqiqi hesab edilənlər" sözlərini əlavə etməli.

14. Maddə Q. "Pul vermək" sözündən sonra "Rusiyada" sözünü "Azərbaycanda" sözü ilə dəyişməli.

14. Maddə Q. "Buraxıla bilər" sözlərindən sonra işbu sözləri "qeyddə tam təminatsız fəqət mövcud idarə əzasının [üzvlərinin] ümumiyyəti-sədası ilə" sözləri "idarə ilə və tam təminatsız fəqət bütün mövcud əzanın ümumiyyəti-sədası [yekdilliyi] şərtdir" əlavə edilməlidir.

14. Maddə Y. Məmnu [yasaq] deyil "Rusiyada" sözünü "Azərbaycanda" sözü ilə dəyişməli.

14. Maddə İ. "İmperiya" sözünü "Azərbaycan Cümhuriyyəti" sözü ilə dəyişməli.

14. Maddə M. "Pay, səhm, mənfəətli

kağızlar” sözlərindən sonra “Azərbaycan Cümhuriyyəti” əlavə etməli.

34. Maddə böylə yazmalı: “Bank idarəsi Bakıda olub üç nəfərdən az olmamaq şərti ilə təşkil edilir. Bunlar Şura tərəfindən təqdim edilən zəvat cümləsindən intixab edilməlidir [seçilməlidir]. İdarə əzasının hesabı beş nəfərədək artırıla bilər. Fəqət səhmdarlar iclasının ümumi qətnaməsi olmalıdır.”

* Ədyan [Dini etiqad] naziri həzrətlərinin Məşixət [Şeyxülislamlıq İdarəsi] xidmətçilərinin siyahısı və maaşları haqqındakı məruzəsi nəticəsində qət edilmişdir: Məruzə ilə məən [birlikdə] pişnihad [təqdim] edilən Məşixət xidmətçiləri siyahısı və maaşları təsdiq edilsin. Layihədə göstərilən miqdarda Məşixət üçün 1 yanvar 1919 sənədən istiqraz buraxılsın.

**Qanun layihəsi**

Hökumətə və Parlamana qanun layihələri idxal etmək qanunu:

1) Parlaman iclaslarında baxılmağa təyin edilmiş heç bir qanun layihəsi Şurayi-Vükəlaya [Nazirlər Kabinetinə] pişnihad edilmədən Parlamana idxal edilənməz.

2) Binaənileyh [ona görə] bir nazir tərəfindən tərtib verilən qanun layihəsi Rəisi-vükəla [Baş nazir] vasitəsi ilə Şurayi-Vükəlaya pişnihad edilməlidir. Bununla bərabər, izahat vərəqəsi pişnihad edilməlidir. İzahat vərəqəsi qanun layihəsini tövlid etdirən [meydana gətirən] əsasları havi olmalıdır [əhatə etməlidir].

3) Qanun layihəsini aldıqdan sonra Rəisi-vükəla lazımi müəssisələrə müraciətən, bu xüsusda məlumat yığmaq haqqına malikdir.

4) Rəisi-vükəla, ona pişnihad edilən qanun layihəsini Şurayi-vükəla iclasına təqdim edir. Müzakirə vaxtı, pişnihad etmiş nazir və yaxud müavini-nazir isbati-vücud [iştirak] etməlidir.

5) Şurayi-vükəla qanun layihəsində dəyişməsi lazım görülən maddələr və yaxud hissələr barəsində məlumatı Rəisi-vükəlaya təqdim edir. Rəisi-vükəla lazımi yerlərin dəyişməsi haqqında nazirə məlumat verir ki, dəyişildikdən sonra yenidən müzakirə üçün idxal edilsin.

6) Hərgah məzkur [deyilən] qanun layihəsində xırda dəyişmələr lazım görüləcək olarsa, o vaxt Şurayi-vükəla həman dəyişiləcək hissələri dəyişir, fəqət onlar barəsində iclas məzbətələrinə [protokollarına] doğru olaraq səbt [qeyd] edilir.

7) Hərgah pişnihad edilmiş qanun layihəsini Şurayi-vükəla Parlamana pişnihad edilməyə layiq bilsə, o vaxt həman qanun layihəsi türk və rus lisanlarında iki nüsxə olmaq üzrə nazirə qaytarılır, bununla bərabər şuranın qətnaməsi də əlavə edilir.

8) Qanun layihəsi verən nazir yeddinci maddə mövcibincə iki lisanda yazılmış qanun layihəsini təcili surətdə Parlamana idxal və şəxsən, yaxud müavini vasitəsi ilə öz qanun layihəsini müdafiə etməlidir.

9) Parlaman, qanun layihəsini təsdiq etdikdən sonra rəsmi “Azərbaycan” qəzetəsinin qismi-rəsmisində [rəsmi hissəsində] elam [elan] ediləcəkdir. Elam işbu sərlövhə ilə olunacaqdır: “Azərbaycan Hökumətinin qanun və qərardadları.”

10) İşbu məsələlərə aid bütün məsələlər əksəriyyəti-səda [səs çoxluğu] ilə qət edilir. Hərgah səslər iki bərabər yerə təqsim edilərsə [bölünərsə], sədrin səsi olan tərəf qalib gələcəkdir.

11) Bu məsələyə aid bütün işlər və habelə həmin layihənin ruscadan türkcəyə tərcüməsi, Hökumət Dəftərxanası İdarəsində Rəisi-vükəlanın təhti-nəzarətində [nəzarəti altında] qövldən feilə [sözdən işə] gətiriləcəkdir.

## TELEQRAF XƏBƏRLƏRİ

**Bolşeviklərlə müharibə**

London - Bolşeviklər Reveli [Tallini] təhdid etdiklərindən dolayı ingilis bəhriyyəsi [donanması] oraya qayıtmışdır. Eston hökuməti İsveç hökumətinə müraciətlə desant çıxarmasını xahiş eyləmişdir. İsveç hökuməti hərçənd qeyri-müəyyən cavab vermişsə də, fəqət bu təvəqqeni qəbul etməyə maildir. Estonlar bu əqidədədirlər ki, Finlanda köməyə gələcəkdir. Fəqət Finlanda, bolşeviklər təhdidi altında olduğundan, Finlandanın kömək edəcəyi şübhəlidir.

Moskva - Türklər tərəfindən mütarikə [atəşkəs] imzalandığından 11 həftə sonra Mədinəni saxlayan türk əsakiri [əsgərləri] Şeyx Səidi-ərəbi qoşunlarına və Müttəfiqlərə təslim olmuşdurlar.

## SÜLH ƏTRAFINDA

London - Puankare "Deyli xronikl" qəzetəsi müxbiri ilə müsahibə edərkən demiş ki, Vilsonun 14 maddəli sülh şəraitinin [şərtlərinin] Şurada müvəffəqiyyətlə keçəcəyinə ümidi bərkamaldır. An-caq onlar, dənizlər məsələsinə aid olan maddə ilə əllərini bağlamaq istəməyə-cəkdirlər. Puankare ümid edir ki, Klemanso ilə Lloyd Corc bir-birlərini yaxşı anladıqlarından bütün maddələr barə-sində aralarında etilaf [uzlaşma] əmələ gələr.

**Konfransda mətbuat nümayəndələri**

Mətbuat nümayəndələri konfrans cələsələrinə [iclaslarına] buraxılacaqdırlar. Fəqət lüzumu təqdirində konfrans cələsələri qapalı olacaq. Yəni, gizlin tutulan cələsələrə mətbuat nümayəndələri buraxılmayacaqdırlar.

**Almaniya nümayəndələrinin başçısı**

Berlin və Münxen qəzetələrinin xəbərlərinə nəzərən, knyaz Lixnovski Sülh Konfransında iştirak edəcək alman heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] başında duracaqdır.

**Sülh Konfransının təşkilatı**

Sülh Konfransının təşkilatı məsələsi haqqında xəbər verirlər ki, mənafeyi bir olan müharib [savaşan] dövlətlər, yəni Amerika, Yaponiya, İtaliya, İngiltərə və Fransa müşavirələrin həpsində iştirak edəcəklərdir. Ümumi məsələlərdən başqa, xüsusi mənafeyi və bərbad bir halda olan müharib dövlətlər, məsələn Belçika, Braziliya və sairləri kəndilərinə aid məsail [məsələlər] müzakirə olunan iclaslarda iştirak edəcəklərdir. Amma bitərəf və yeni təşkil olan dövlətlərin ərizəsinə ayrıca baxılacaqdır.

## QƏZETƏLƏRDƏN

### Karl Libknext

Karl Libknext, Almaniya Sosial-Demokrat firqəsinin məşhur banilərindən Vilhelm Libknextin oğludur. Mumaileyh [adı çəkilən şəxs] 1871-ci sənədə Berlində doğ[ul]muşdur. Mətbuatla iclaslarda Karl ən sol cənahı tuturmuş. 1900-cü illərin ibtidasında [başlarında] əsgəriyyət (militarizm) əleyhinə ciddi təbliğatda bulunmuşdur. 1907-ci ildə Karl, əsgəriyyət əleyhinə yazmış olduğu bir kitabçasından dolayı il yarım həbsə məhkum edilmişdi.

1908-ci ildə Karl Libknext Prussiya Landtaqına [Parlamentinə] intixab edilmişdi [seçilmişdi]. O, müxtəlif cələsələrdə hökumət əleyhinə irad etdiyi [söylədiyi] nitqlərindən ötrü daima cəzalanırdı. 1912-ci sənədə isə Potsdamdan Reyxstaqa intixab edilmişdi. 1914-cü ilin ibtidasında Libknext kayzeri təhqir etdiyindən dolayı məhkəməyə verilmişdi. Almaniya müharibə elan etdiyi hində [əsnada] Libknext Parlamanın Sosial-demokrat fraksiyasında çalışırdı ki, Sosial-demokrat fraksiyası müharibə əleyhinə bulunsun. Firqələrin əksəri bu mətləbə razı deyildilər. Lakin Libknext yeganə olaraq hərbi istiqraz əleyhində bulunmuşdur. Bu isə bütün firqələrin narazılığına səbəb olmuşdur. Libknext inadında Rusiya bolşeviklərinin başçısı olan Leninə çox bənzəyirdi.

### Roza Lüksemburq

Libknextlə bərabər fəcianə [faciəvi] bir surətdə qətl edilən Roza Lüksemburq xanım lehistanlıdır [polyakdır]. Mumaileyha [adı çəkilən qadın] Berlin Darülfününunda [Universitetində] həkimlik elmini ikmala yetirmişdir [başa vurmuşdur]. Lüksemburq daima Almaniya və Rusiyanın sosial-demokrat qəzetələrində iştirak edirmiş. Özünün bir neçə məşhur əsərləri də vardır. 1905-ci ildə Rusiya inqilabının birinci dövründə Roza Rusiyaya dəxi gəlib, bir qədər Rusiyada qaldıqdan sonra Almaniyaya qayıtmışdır. Saldatları əsgərliyə getməməyə dəvət etdiyi üçün Roza bir il həbsə məhkum edilmişdi. Müharibə başlandıqdan sonra Lüksemburq, ingilis mətbuatında alman sosial-demokratlarını öz şüarlarına xilaf getmələri ilə məzəmmət edirdi. Nəhayət, Almaniyada inqilab başlanması ilə Libknext kimi Roza Lüksemburq da inqilab qurbanı olmuşlardır.

### Lenin həbs edilmişdir

Kuşkada mövcud telsiz teleqraf mövqifi [stansiyası] bugünlərdə Moskvadan çəkilən bir telsiz teleqraf xəbərini tutmuşdur. Bu teleqrafdan anlaşılır ki, Şura Hökuməti hal-hazırda hər bir tərəfdən mühasirə edilmişdir və bu ağır əhvaldan dolayı Şura Hökuməti başçıları arasında böyük ixtilaf vardır.

Camaat Komissarları Şurasının [Xalq Komissarları Sovetinin] son iclaslarından birisində Lenin təklif eyləmişdir ki, özü və komissarlar əhvalın ümidsiz olduğundan dolayı iş başından çəkilib hökuməti başqalarına güzəşt etsinlər. Leninin bu təklifinə Trotski çox ağır cavab verib, Leninə demişdir ki, onun etilafçı [uzlaşmaçı] siyasəti Şura Hökumətini məhv edir. Hərgah Lenin bu siyasəti vücuda gətirərsə, Trotski öz əli ilə Leninə iki güllə

vuracaqdır. Lenin ilə Trotski arasında olan bu mübahisə barəsindəki teleqram yanvarın 10-da tutulmuşdur. Yanvarın 13-də Moskvadan bildirilir ki, Trotskinin əmri üzərinə Lenin fövqəlzikr [yuxarıda deyilən] siyasətdən dolayı həbs edilmişdir. Kopenhaqdan Məşhədə göndərilmiş olan digər bir teleqram da bu xəbəri təyid [təsdiq] edir.

## ERMƏNİ FİTNƏLƏRİ

**Qarabağ Erməni Milli Şurasının Bakı Erməni Milli Şurasına müraciəti**

Artıq təəssüf olsun ki, Qarabağda olan ermənilərin nümayəndələri bugünədək Bakıya gəlib də öz dərdlərini söyləməyə və öz ağır hallarını bildirməyə imkan bulmamışlardır. Buna səbəb Yevlax-Şuşa yolunun, xüsusən dəmiryolların bizim üçün xətrəli [təhlükəli] olmasıdır. Digər tərəfdən, teleqraf Azərbaycan Hökuməti əlində olduğundan, özümüzün böhranlı halımız barəsində məlumat verməkdən məhrum olmuşuz. Şuşadakı ingilis heyəti indi bileyn [öz gözü ilə görüb] inanmışdır ki, əvvəlkilərdən artıq biz fəna şərait altında yaşayırız. Hər bir dəfə biz Qarabağ ermənilərinin ağır halları barəsində ingilis komandanlığına ərzihal etdikdə, onlar teleqrafla bu halları Bakıya bildirib, Şuşaya ingilis qoşunlarının göndərilməsinin lazım olduğunu bildirmişlərdir.

Bizim bu haqlı olan tələbimizə bu vaxta qədər heç bir əhəmiyyət və etina verilməmişdir. Şuşada olan ingilis komandanlığı dəfəatla [dəfələrlə] bizə "tatar" dəstələri qarşısına çıxmaq üçün gücsüz olduğunu bildirmişdi və onun kömək barəsində Bakıdan, ingilis komandanlığından etdiyi tələbi daima nəticəsiz qalmışdır.

Azərbaycan qoşunları və türk əsgərlərinin biz ermənilərə etdikləri zülüm barəsində daklad [məruzə] edən biz erməni nümayəndələri, ingilis heyətinə etdiyimiz dakladın hər bir maddəsi barəsində sübutlu materiallar vermişik. İngilis heyətinə müraciətimizlə bizim halımız yaxşılaşmaq deyil, dəxi də fənalaşdı və mümkündür ki, az bir zamanda halımız dəxi də fəcianə olsun. Türklərin hökmranlığı zamanı biz öz vətənimizi, namusumuzu və millətimizi müdafiə edirdik. İngilis heyətinin vürudundan [gəlməsindən] sonra onlara böyük ümid bağlayıb adi yaşayışa başladıq və ümid edirdik ki, ingilislər gəldikdən sonra bu qətl-qitala [qırğına] bir intəha [nəhayət] verilər. Amma indi anlayırız ki, biz öz sadədilliyimizin qurbanı olmuşuq. Bizim böylə halımıza qarşı general Tomsonun sükutu nədən nəşət edir [irəli gəlir]? Burası inkar edilməyən bir həqiqətdir ki, hər gün Qarabağ ermənilərinə düşmənlər təcavüz edirlər. Bütün yollar üzərimizə bağlıdır. Hər gün bizi hər bir tərəfdən mühasirə edirlər. General Tomson hətta öz afserlərinin [zabitlərinin] teleqramını da bietina qoyur. Bu isə dəxi də bizim ağlar halımızı və 300 min nəfərdən ibarət olan Qarabağ ermənilərinin ağır vəziyyətini fənalaşdırır. "Azərbaycan" qəzetəsində hər gün yalan teleqramlar dərc edilərək Qarabağ ermənilərinin məzalimindən [zülmündən] bəhs edirlər. Bu yalan xəbərləri təkzib etməkdən məhrum olmuşuz. Protestomuz da yerinə çatmayır.

Çünki teleqrafxanalar azərbaycanlıların əlindədir. Bizim əl-ayağımız bağlı olduğundan, ədalətli səsimizi sizə yetirməkdən məhrum olmuşuq. Heç olmazsa, siz general Tomsonu inandırınız ki, Qarabağa qoşun göndərmək fərzdir.

Bunu da məlum ediriz. Qarabağda olan ermənilərin nümayəndələri ingilis heyətinə məlum etmişlər ki, gərək Türkiyə qoşunları və gərək "tatar" dəstələri əleyhinə olan mübarizə ancaq öz qüvvəmizlə olmuşdur. Kənardan kimsə bizə kömək etməmişdir. Bütün il müddətində biz hər növ müsibət və cəfalara dözmüşük və çox fədakarlıq etmişik. İndi biz arzu edirik ki, Sülh Konfransında müqəddəratımız həll edilənədək Qarabağın ümuri-idarəsini [idarəçiliyini] ingilislər əllərinə alsınlar və təvəqqe ediriz bu məalda [məzmunda] ingilis komandanlığı qarşısında təşəbbüsatda bulunasınız. Bunu da mümkün olduqca tez ediniz. Əks surətdə qayət müdhiş müsadimə [toqquşma] törəyə biləcəkdir.

Cəbrayıl uyezdində məhəlli [yerli] Azərbaycan hökumət məmurları silahları təslim və hökuməti etiraf etmək [tanımaq] üçün bizə ultimatum vermişdir. Hərgah siz yubansanız, biz öz dərdimizi sizə və ingilislərə xəbər verməkdən və müavinət istəməkdən qəti surətdə məhrum olacağız. Çünki teleqraf, poçta və yollar Azərbaycan məmurları əlindədir. Bizlər amansız bir surətdə tələf olacağız.

Bunu da lazım bilirik sizə xəbər verək ki, yanvarın 5-indən Azərbaycan qoşunları, Qarabağda qalan türk əsgərləri və türk zabitləri başda olmaq üzrə, Ağdamda olan quldur dəstələri ərkani-hərbi [qərargahı] təşkil etmişlərdir. Buraya bir çox mühimmati-hərbiyyə [hərbi sursat], top və pulemyot gətirilməkdədir. Neçə mindən ibarət bir dəstə Zabux dərəsinə göndərilib həmin uçastoku işğal etmişdir. Digər tərəfdən, Əsgəran yolu zəbt edilib, Xankəndinə təzə dəstələr göndərilmişdir. Bunlar hamısı aşkar surətdə göstərir ki, Azərbaycan məmurları tədriclə bizi cəbhədən və arxadan mühasirəyə salırlar. Bunların hamısı keçəndən sonra gözləməlidir ki, günlərin bir günündə onlar bizə ultimatum verib təslim olmağımızı tələb etsinlər.

İngiltərə heyətinin hər bir təklifinə dürüst əməl edib, biz başlanmış olan hərəkatın qabağını almaq üçün heç bir tədbir görməyirik. Bununla da biz öz ehtiyacımız üçün təhlükə vücuda gətirib, təbiri-digərlə [başqa sözlə] bütün Qarabağ ermənilərinə biz özümüz qəbir qazırıq. Bu dediklərimiz boş söhbət olmayıb acı bir həqiqətdir ki, sizin diqqətinizi buraya cəlb edirik.

Qoy sizə məlum olsun ki, il yarımdır bizim əlaqəmiz bütün dünya ilə kəsilmişdir. Camaatımız, xüsusən kənd əhalisi maddi cəhətdən xeyli üsrət [çətinlik] çəkməkdədir. Kəndlilər öz həyatlarını təmin etməkdən ötrü bütün ev şeylərini, palaz-paltarlarına qədər bazara çıxardıb satmışlardır. Maddi cəhətdən üsrət çəkməkdə olan əhalinin təmin edilməsi məsələsi də lazımi məsələlərdən biridir. Özümüzü idarə etməkdən ötrü xüsusən bütün mənası ilə aclıq çəkən əhalini doyurmaq üçün böyük bir məbləğ lazımdır.

*Sədr İşxanyan.*
*Şura üzvləri:*
*Şahnazaryans və Astvaturov.*
*Katib Ter-Mikaelyans.*

Yanvarın 12-də yazılmış olan Qarabağ Erməni Milli Şurasının məruzəsinə əlavə olaraq, şura Şuşa şəhərində olan İngiltərə heyətinə xəbər verir ki, Əsgəran cəbhəsində Azərbaycan əsgərləri 16 dəyirmanı dağıdıb, taxılları zəbt etməklə erməni əhalisini taxıl üyütmək imkanından məhrum etmişlərdir. Azərbaycan əsgərləri Əsgəran dairəsində olan kəndlərin yeməli şeylərini və qaramalını çıxarıb aparmaqdadırlar. Bir neçə birlikdən ibarət Azərbaycan və türk əsgərləri, türk zabitləri başda olmaq üzrə Zabux dərəsini işğal edib, Cəbrayıl (Qaryagin) uyezdində olan erməni kəndlərinə hücum etməyə başlamışlardır. Məhəlli Azərbaycan Hökuməti məmurları Cəbrayıl uyezdində olan erməni əhalisinə ultimatum verib, silahları təslim etməyi və tabe olmağı tələb etmişlərdir. Az bir miqdarda olan Azərbaycan əsgərləri Xankəndi ilə Əsgəran arasında olan Şuşa yolu boyunda əməliyyatdadırlar. Bu qərar üzrə Qarabağın ermənilərlə məskun hissəsi mühasirə halındadır. Heç bir tərəfdən düşmənanə hərəkət olmaması üçün Bakıda olan Müttəfiq qoşunları Baş komandanı general Tomsonun teleqrafla verdiyi əmrə və Şuşa şəhərində olan İngiltərə heyətinin elanına görə erməni əhalisi bu əmrlərə tabe olub, bu tövr başsızlıqların qabağı alınması üçün Müttəfiq komandanlığı tərəfindən tezliklə binagüzarlıq [sərəncam] veriləcəyini səbrsiz bir halda gözləməkdədir.

*Şura üzvləri:*
*İşxanyan, Şahnazaryan, Şahnəzərov, Ter-Astvatsaturov, Ter-Mikaelov.*

## ŞƏHƏR DUMASI ƏTRAFINDA

1919 səneyi-miladiyyəsi, yanvarın əvvəlində Bakı Bələdiyyə Məclisi vəkillərinin (qlasnıların) vəkaləti qurtarmışdır. Qanuna görə bugündən etibarən Bələdiyyə Məclisi təzələnməli idi. Fəqət bu vaxtadək təzələnməmişdir və yeni qlasnı seçkiləri uğrunda hələ bir tədbir görülməmişdir. Səbəbi də budur ki, seçki hazırlıqlarına şüru etmək [başlamaq] üçün müəyyən bir qanun lazımdır. Bakı Bələdiyyə Məclisi hangi qanun üzərinə yeni seçki hazırlasın?

Bu vaxtadək Bələdiyyə Məclisi haqqında olan sabiq rus hökuməti qanunları yaramaz, bundan sonra bələdiyyəyə dair qanunlar təbiidir ki, Azərbaycan dövlətinin qərar qoyduğu qanunlar olacaqdır. Odur ki, 13 kanuni-sani [yanvar] tarixli iclasında Bələdiyyə Məclisi dəxi Azərbaycan Hökumətinin qanun verməsini gözləməyi təhti-qərara almışdır. Fəqət bu əhval və Bələdiyyə Məclisinin bu qərardadı müxalif firqələrin xoşuna getməmişdir. Onlar öz qəzetələri vasitəsilə Bələdiyyə Məclisinə hücumlar edir, bələdiyyə vəkilləri başına od yağdırır, şimşək calayırlar. Tələb edirlər ki, bələdiyyə vəkilləri bu saat çıxsınlar, yerlərini kimə isə güzəşt etsinlər.

Nə üçün çıxsınlar? Yerlərini kimə güzəşt etsinlər? O qəzetəçilər deyirlər: Bunlar çıxsınlar çünki "türk süngüsü" zoru ilə təyin edilibdirlər. Yəni onları türklər çağırmışlardır. Yerlərini də "demokratik vəkillərə", yəni 1918-ci il əvaxirində [axırlarında] seçilmiş olan vəkillərə güzəşt qılsınlar. Çünki camaat nümayəndəsi ancaq bunlardır.

İştə, bu iki məsələdən bir qədər bəhs etmək istəriz. Ancaq qabaqca bitərəfanə yazdığımı isbat üçün ərz etməliyəm ki, bu sətirləri yazan özü də 12-ci siyahı ilə seçilmiş bələdiyyə vəkillərindən olub, bu vaxtadək də Dumada işləməyə bütün arzusuna rəğmən müvəffəq olmamışdır. Amma bununla bərabər, məsələyə bitərəfanə baxmağı daha faydalı görürəm. Söz burasındadır ki, bolşevik-daşnak-sentrokaspi-menşevik hökumətlərinin altı aylıq keyfəmayeşasından [özbaşınalığından] sonra paytaxtımız nəhayət həqiqi sahibinə vüsul olub [qovuşub], Azərbaycan Hökuməti əlinə keçdikdən sonra şəhərdə bu ya o surətlə qanuni xalq nümayəndələrini təcdid [bərpa] və şəhər ehtiyaclarının ödənməsinə şüru etmək [başlamaq] lazım gəlirdi. Əzcümlə [o cümlədən], Bələdiyyə Məclisinin fəaliyyətini təzələməli idi. Şüru edildi, bələdiyyə vəkilləri fəaliyyətə çağırıldı, fəqət lazım olan miqdarda "demokratiya nümayəndəsi" tapılmadı. Çünki bunlardan bir qismi (müsəlmanlar), bolşevik-daşnak hökmranlığının öldürücü dalğaları tərəfindən İran, Türküstan və Qafqaziyanın uzaq guşələrinə atılmış və hələ şəhərə qayıtmaq imkanı bulmamışlardı. Bir qismi də Bakı da Azərbaycan əlinə keçəndə elə bilmişdi ki, Azərbaycan Hökuməti də özləri kimi təhəmmülsüzlük [dözümsüzlük] ibraz edəcək, hamını özünə düşmən hesab edərək öldürəcəkdir. Ona görədir ki, şəhərin süqutu ilə çıxıb qaçmış və guya "təmsil" etdiyi demokratiyanı başına buraxıb, demokratiyanın tapşırmış olduğu vəzifə və hüququ öylə asanlıqla buraxmışdır.

Digər bir qismi də müsəlman hökuməti olan yerdə qalmağı öz şanına kəsir bilib getmişdi. Ona görədir ki, Bələdiyyə Məclisinin fəaliyyəti təcdid edilmək istənildikdə, "demokratiya nümayəndələri" tapılmamışlardı. Bunlar gələnədək də gözləmək, bələdiyyə işlərini onların keyfinə fəda etmək olmazdı. Digər tərəfdən, əlbəttə, o halda yeni seçki icrası da mümkün deyildi. Bundan dolayıdır ki, Bələdiyyə Məclisi təzədən açıldıqda heyətin təkmilinə lüzum görülərək, kooptasiya əsası ilə təkmil edilmişdi. Həman bu kooptasiya əsası ilə Bələdiyyə Məclisinə daxil olanlardır ki, bu gün bəzi qəzetələr tərəfindən üstlərinə türk "istavlenniki" [əlaltısı] adı qonularaq Dumadan çıxmaları tələb olunur. (Məxfi qalmasın ki, bunların həpsi müsəlman deyil.)

Bələdiyyə vəkillərinin müddəti-vəkaləti [vəkillik müddəti] bitmişdir. Bunu hamı etiraf edir. Bələdiyyə Məclisinə yeni vəkillər seçmək lazımdır. Bunu hamı qəbul edir. Bu məsələlərdə sağ, sol, demokrat və qeyri-demokratlıq ola bilməz.

Sairləri ilə bərabər Bələdiyyə Məclisinə yeni vəkillər seçkisini biz də tələb ediriz. İstəyiriz ki, Azərbaycanın qüvveyi-təşriiyyəsi [qanunverici hakimiyyəti] olan Parlamanımız təxir gözləməyən bələdiyyə qanununu verməyə bir an əvvəl təşəbbüs etsin. Tainki ən yaxın zamanda demokratik əsaslar üzərinə bələdiyyə vəkilləri seçkisinə şüru edilsin.

Əsas nöqteyi-nəzərimiz böylədir. Fəqət bəzi qəzetələrin bu məsələdə tutduğu mövqe, xüsusən "İskra" qəzetəsinin və onun baş mühərriri olan tovariş Roxlinin vəziyyəti-hərbcuyanəsi

[davakar mövqeyi] bizi heyrətdə buraxır. Bələdiyyə Məclisi məsələsində ən şiddətli lisanla "rəcəz" oxuyan Roxlin məsələyə iki tərəfdən yaxlaşır:

1) Bələdiyyə Məclisinin heyəti-şəxsiyyəsi [şəxsi heyəti];

2) Bələdiyyə Məclisinin hüququ.

Və məsələnin hər ikisində qəribə bir vəziyyət alır.

Qəribədir, çünki 1918-ci il Bələdiyyə Məclisini hamı demokratik adlandırsa da, tovariş Roxlin gərək demokratik adlandırmasın. Zira həman Roxlin idi ki, mərkəzi seçki komitəsində seçkilər haqqında məruzə verərkən dedi: *"Hərçənd, seçki ələlümum kafi nəticə vermişdir. Fəqət mən deməliyəm ki, intixabat [seçkilər] vaxtı çox saxtakarlıqlar olmuşdur. Həm də müxtəlif firqələr və təşkilat tərəfindən."* (Saxtakarlıq sənədlərini də təqdim etmişdi.) Bundan əlavə: *"Bir çox qanundan xaric olaraq seçilmiş adamları bizə güclə qəbul etdirirlər. Ümumiyyətlə, mənim rəyim böylədir ki, demokratik seçkilər demokratizmə müğayir [zidd] nəticələr verdi."* - sözlərini deyən yenə həman tovariş Roxlin özü idi.

Mərkəzi seçki komitəsinin bir üzvü olmaq üzrə məzkur [adı çəkilən] komitənin son iclasında seçki nəticələri haqqında verdiyi məruzəsində komitənin baş katibi tovariş Roxlinin dediyi bu sözləri, əgər unutmuşsa, yadına salmaq istərəm. Yəqin unutmamışdır da. Bu sözləri Roxlin nə üçün deyirdi? Çünki seçki zamanı bir çox firqələr tərəfindən çox saxtakarlıqlar edildiyi anlaşılmışdı. Hətta, o vaxt seçkini qeyri-qanuni hesab edərək Qafqaziya Komissarlığına şikayət vermək istənilirdi. Ancaq işi uzatmamaq və hər necə olsa da seçilmiş bir Duma yaratmaq istənildiyi üçün seçki qəbul olundu. Bu bir.

Digər tərəfdən təhriri-nüfus [əhalinin sayımı] vaxtı müsəlmanların yarısı bağlarda, yaylaqlarda olaraq siyahıya düşməmiş və qayıtdıqdan sonra da bütün təşəbbüslərinə rəğmən siyahıya daxil edilməmiş. (Hətta, mən özüm kəndi ailəmizdən, 6 adamdan ancaq birinin siyahıya düşdüyünü bildirərək, yerdə qalanlarının da yazılmasına nə qədər çalışdımsa "gecdir" dedilər.)

Minlərcə müsəlman səs haqqından məhrum edilmiş olduğu halda, cəbhədən gəlmiş neçə min əsgər qanundan kənar olaraq özbaşlarına qlasnılar seçdilər və mərkəzi komitənin son iclaslarından birisində Şaumyan bir dəstə əsgərlə iclasa gələrək saldat yaşiklərinin [qutularının] də açılmasını, müntəxəblərin [seçilmişlərin] bələdiyyə vəkilləri zümrəsinə daxil edilməsini tələb eylədi. Hətta, bir balaca hədələmək də oldu. O vaxt komitə əzası saldat gücü ilə tələb olunan bu məsələdə bir qədər tərəddüd göstərdikdə, daha doğrusu açıqdan-açığa rəy verməyə qorxduqda, yenə həman Roxlin idi ki: *"Yoldaşlar, mərd olun, açıq söyləyin. Böylə haqsızlıq və ədalətsizliyə biz razı ola bilərmiyiz?"* - deyə xalqı məzəmmət edirdi.

İndi nə olmuş ki, o saxtakarlıqlar, o demokratizmə müğayir [zidd] nəticələr və ədalətsizliklər bu gün unudulmuş, həpsi demokratizm olmuşdur? Əgər Bələdiyyə Məclisində indi oturanların bəziləri sağ "istavlenniklər" isə "İskra" müdirinə yaxşı məlumdur ki, keçən ilki heyət də sol "istavlennik" idi. Əgər

bugünkü heyət qismən qeyri-qanuni olaraq oturursa, Roxlinin görmək istədiyi demokratik heyət tamamilə qeyri-qanuni olaraq otururdu. Birincilər ümum müəssisələrdə qanuni bir tədbir kimi işlənən kooptasiya əsası ilə gəlmişsələr, ikincilər Roxlinin özü şahid olduğu "falş" və "paddelka" [saxtakarlıq] ilə keçmişlərdir.

Bu gün məsələyə demokratik nöqteyi-nəzərdən baxsaq, Bakı Bələdiyyə Məclisinin ömründə demokratik bir heyət görməmiş olduğunu hamı etiraf edər. Duma həman əski Duma idi. Yalnız bələdiyyə vəkilləri adi "qospoda" əvəzinə "tovariş" kəlməsi qullanmaqla kəndilərini demokrat görürlərdi.

Digər tərəfdən, məsələyə qanun nöqteyi-nəzərindən baxılsa, məncə o qədər saxtakarlıq və saldat gücündən sonra, indiki heyətin qalması sabiqkindən daha qanuni olsun gərək.

Roxlin Bələdiyyə Məclisinin hüququ məsələsində daha qəribə bir vəziyyət alır. *"Məhəllərdə [yerlərdə] bütün hökumət ümur [işləri] və ixtiyarları bələdiyyə məclisinə verilməlidir"* - deyir. Bu mühərririn və ruhlandırdığı qəzetənin istədiyi bu imiş ki, bir il əvvəl hamıdan ziyadə özü protesto etdiyi saxtalığını özü təsdiq etdiyi bir neçə adam Duma adı ilə gəlib hökumət olsun, "peredovaya demokratiya" [qabaqcıl demokratiya] təzədən Azərbaycan üzərinə hökmran kəsilsin və Mart hadisəsi olmasa da martdan sentyabradək davam edən "demokratizm" təzələnsin.

İştə Bələdiyyə Məclisi məsələsində "İskra" və kompaniyasının aldığı münqəlib [qılıq dəyişdirmiş] bir vəziyyət və demokratizm maskası altında mənsəb axtaranların xam xəyalı.

Biz isə Azərbaycan Hökumət və Parlamanından yeni bələdiyyə qanunu və Bələdiyyə Məclisindən yeni intixab [seçki] gözləyiriz.

*Xəlil İbrahim*

## ZAMAN NƏYİ İCAB [LABÜD] EDİR?

Bir kərə gözümüzü açıb da dünyaya nəzər edəlim. Nəzərimizə çarpan bir çox bədaye və asarın [gözəlliklərin və əsərlərin] həpsi sarsılmaz bir səbatla, çalışmaqla vücuda gəlib son dərəcə fədakarlıqla hüsulpəzir olmuşdur [əmələ gəlmişdir].

İctimai bir iş görülmək istənildiyi vaxt, yalnız nəqliyyatla [nağılçılıqla] uğraşılıb da qəvi [güclü] və mətin bir əzmlə çalışılmazsa, o işin hüsulunun qeyri-mümkün olduğunu bəyan etməyə əlbəttə hacət yoxdur.

Biz Qafqaziya türkləri ta əskidən bəri şani-milli, şərəfi-dini və hakimiyyət zövqlərini dadmaq və düşünmək istəməyərək, xəyal və övhamatla [vəhmlərlə] yaşamışız.

Gördüyümüz işlərdə mövcudiyyətimizi izhar edərək millətimiz üçün qibtə olunacaq bir ləyaqət istehsal edəcəyimiz yerdə, daima miskin və məfkurəsiz yaşayaraq, bunun üçün də səadət və mövcudiyyəti-milliyyədən məhrum olub, ictimai bir fayda, gözəl bir nəticə əldə edəmməmişizdir.

Yaşadığımız iyirminci əsrin icabatına [ehtiyaclarına] baxaraq söylənilərsə, bun-

dan sonra mühitin və zamanın icabatını ifa etmək istəməyərək, hissi-millidən məhrumiyyət və dünyanı anlamamazlıqla iştiğalda [məşğul olmaqda] davam edərsək, bu halın bizi zərərdən zərərə soxacağı və istiqbalımıza [gələcəyimizə] qayət böyük bir cərihə [yara] açacağı acı bir həqiqət kimi nəzərə çarpır.

Hal-hazırda mənfəət üçün acizlərin, zəiflərin və qəflət dəryasına dalıb da cəhalət səhrası içində yaşayanların haqqında zülüm və zillətin yapıldığı və yapılacağı aşkardır. İçində bulunduğumuz və xitama yetmək üzrə bulunan Cahan müharibəsi, yaxıcı şərarələrinin [qığılcımlarının] işığı ilə bizə bu həqiqəti apaçıq bildirdi.

Bildirdi ki, dünyada mövcudiyyətlərini izhar etmək uğrunda ciddiyyəti-fövqəladə ilə [böyük bir ciddiyyətlə] fədakarlıqda bulunmayanlar, daima özgələrinin, zalımların boyunduruğu altında əzilərək məhkumi-zəval [yox olmağa məhkum] olacaqlardır. Bildirdi ki, icabat və təqazayi-dövran ilə [dövrün ehtiyac və tələbləri ilə] hərəkət edərək istiqbal üçün hallaşmayan millətlər, müqəddərati-milliyyələrini həll etmək şərəfindən məhrum olaraq mövcudiyyətlərini ifna [yox] edəcəklərdir.

Əcəba əskidə bulunan müqəddəratımızı əlimizə almaq və biz də artıq yaşamağa istehqaqımız [haqqımız] var deyəcək bir hazırlığımız varmıdır ki, böylə heyran-heyran baxıb dururuz? Milli qayə və məfkurəmizi başqalarının əlinə tapşırıb da təvəkkül ilə kənardan seyr edərsək, məmul etdiyimiz [qazandığımız] mənafeyi-ictimaiyyə və milliyyəmiz, nəticə etibarı ilə "sıfır" olacaqdır.

Hal-hazırda məfkurəmizin hüsula gəlməsi üçün artıq iyirminci əsrin oğlu olmaq icab edir.

Bu gün sevinə-sevinə bayrağını ucaltdığımız Azərbaycanın milli bayrağının əbədi olaraq cövvi-havada [səmada] cövlan etməsi üçün hər azəri türkünün fərdi, mövcudiyyətindən vaz keçəcək bir surətdə çalışmalıdır. Türklərin məşahiri-şüarasından [məşhur şairlərindən] olan Ziya paşa həzrətləri nə deyir:

*Hər dərdin olar çarəsi, hər inləyən ölməz,*
*Hər möhnətə bir axır olar, hər qəmə payan.*

Əvət, dərdimiz söylənir, fəqət çarəsinə baxmaq üçün heç bir təşəbbüs yoxdur. Əgər sarsılmaz bir mətanət, fövqəladə bir üxuvvət [qardaşlıq] ilə "mənəmliyi" və əğraz və mənafeyi-şəxsiyyəni [şəxsi qərəz və mənafeləri] tərk edərək əl-ələ verib milli məfkurəmizin hüsula gəlməsi üçün çalışmazsaq, istiqbalda vətənimizin ayaqlar altına alınaraq şunun-bunun cövlangahı olacağından qorxular. Əgər bu gün də əlimizə düşən fürsəti fövt [puç] edərsək, artıq ilayövmülqiyam [qiyamət gününə qədər] dirilməyəcəyimiz, gündən aşkardır.

Bu gün hökumətimizin rüknünü [əsasını] təşkil edən heyət və möhtərəm Parlament əzaları [üzvləri] bir gəmiçiyə, bir kapitana bənzəyirlər. Əgər millət bu kapitanlara icab edən müavinət və fədakarlığı yapmazsa, əlbəttə onlar da müqəddərati-milliyyə gəmisini böylə dərin, dalğalı, tufanlı girdabdan sahilinicata [xilas sahilinə] çıxarammazlar.

Millətimizin hər bir fərdi əl-ələ verərək müştərək və ümumi bir məfkurənin

hüsula gəlməsi və bu səbəblə səadəti-milliyyəmizin təmin olunması üçün bir ciddiyyəti-xariqüladə ilə çalışaraq cahana elam etməliyiz [bildirməliyik] ki, əvət biz də bəni-bəşər [insan oğlu] olduğumuzdan, məhkumiyyət altında qalmağı istəməyiriz. Bunun üçün lazım gələn qüvvəni tədarük etmək ən birinci borcumuzdur.

Sevgili şairimiz Cavid əfəndinin buyurduğu kimi:

*İnanma aciz üçün yox hüquq, inanma, xayır!*
*Cahanda haq də, həqiqət də, həpsi "qüvvət"dir!*

*Ağakişizadə Əbdürrəhim*

## BAKI XƏBƏRLƏRİ

**Çay oğurlanmaq barəsində təzə əhvalat**

Necə ki məlumdur, bir neçə həftə bundan qabaq Bələdiyyə İdarəsi Ərzaq şöbəsi Ərzaq Nəzarətinin ixtiyarına keçmədən bir neçə gün irəli şöbənin çay skladının müdiri polisəyə xəbər vermiş idi ki, gecə oğrular gəlib skladı yararaq altı yüz min manatlıq çay oğurlamışlar. Bu iş polis tərəfindən təftiş olunub, nəticədə təhərri [axtarış] polisi tərəfindən həman skladın bir neçə nəfər qulluqçuları həbsə alınıb və evləri axtarıldıqda birisinin evindən beş put həman oğurlanmış çaydan tapılmış idi.

Bir az sonra bəzi dairələrdə böylə danışıq qalxdı ki, guya təhərri polisəsi əfradı [nəfərləri] həmin oğurlanmış çayın 40 putunu Nikolayevski küçədə bir tacirin mağazasında tutub, sonra Ərzaq Nəzarətinə xəbər vermədən buraxmışlar. Bu iş barəsində təftişat yapıldıqdan sonra məlum olmuş ki, həqiqətən də 40 puta kimi çay tutulub. Çay sahibi məlumat vermiş ki, bu çay Batumdan gələn çaydır və təhərri polisi həman tacirin sözünə inanıb, çayı zəbt etməmişdir.

Hal-hazırda təhərri polisəsinin naçalnikliyinə təyin edilmiş Fətəlibəyov cənabları bu çay fəqərəsinə [hadisəsinə] fikir verib yəqin etmiş ki, bu işdə polis qulluqçuları xəyanət etmişlər. Buna görə də şəxsən bu iş barəsində olan bütün kağızları alıb yenidən təftişat başlamışdır.

Naçalnik cənablarının sözündən anlaşılır ki, həman tacirdə tutulmuş 40 put çay da həmin oğurlanmış çaydan imiş. Lakin necə olubsa polis agentləri səhlənkarlıq etmişlərdir.

* Bir çox varislər Bələdiyyə İdarəsinə müraciətən [müraciət edərək] qulluqdan əzl edilmiş [qovulmuş] adamları üçün maaş istəmişlərdir. Bələdiyyə İdarəsi qət etmişdir ki, böylə maaş fəqət qanuni varislər və yaxud varisliyi məhkəmə vasitəsi ilə isbat edilmiş əşxasa [şəxslərə] verilsin.

* Bir çoxları Bələdiyyə İdarəsinə müraciətən şəhər kənarındakı lazımsız quyuların doldurulmasını rica etmişlərdir. Zira bunlar əhali üçün xətrəlidirlər [təhlükəlidir].

**Müsəlman mətbəə əmələlərinin yığıncağı**

Bu gün yanvar ayının 23-ü, axşam saat 4 tamamda "Azərbaycan" qəzetəsi

idarəsində müsəlman mətbəə əmələlərinin [işçilərinin] ikinci ümumi iclası olacaqdır. Müzakirə ediləcək məsələlər:

1) Birinci iclasda müntəxəb [seçilmiş] komisyonun məruzəsi.

2) Fəhlə konfransına nümayəndə intixab etmək [seçmək] və Soyuza [İttifaqa] nümayəndə göndərmək məsələləri.

3) Məclisdə qalxacaq cari məsələlər.

Ümum müsəlman mətbəə əmələlərinin vaxtında iclasda hazır olmaları mətlubdur [tələb olunur].

*Heyəti-mütəşəbbisə*
*[Təşəbbüs heyəti]*

**Pulsuz müalicə**

4-cü uçastok ev komitəsi bununla özünə tabe ev komitələrinə elan edir ki, yanvar ayının 21-dən komitənin idarəsində əhaliyə məccani [pulsuz] olaraq baxmaqdan ötrü bir təbib və bir feldşer səhər saat 9-dan axşam saat 9-dək növbətdə dururlar. Uçastok komitəsi, ev komitələrinə təklif edir ki, hər kəsin rayonunda şübhəli naxoş olsa, idarəyə məlum etsinlər və axşamlar saat 4-dən 6-ya qədər 50-50 nömrəli telefonla təbibi evlərinə dəvət edə bilərlər.

**Mərkəzi Komitənin iclası**

Yanvarın 24-də, cümə günü saat 11-də Qafqaziya Müsəlman Mütəəllimlərinin [tələbələrinin] Mərkəzi Komitəsinin iclası Əli Yusifin evində (Persidski caddə 121) vüqu bulacaqdır.

* Yanvarın 23-də pəncşənbə [cümə axşamı] günü saat 5-də Birinci Realnı məktəbinin Bakı Birinci zükur [oğlanlar] gimnaziyasının müsəlman mütəəllimlərinin iclası vüqu bulacaqdır. Həp arxadaşların gəlməsi rica olunur.

**FƏHLƏ KONFRANSI**

22 yanvar 1919 sənə.

372 nəfər qəti səsə malik əza [üzv] iştirak edir.

Ruznameyi-müzakirat [müzakirə gündəliyi]:

1. Müştərək müqavilənamə.
2. Bələdiyyə Məclisi məsələsi.
3. Fəhlə nümayəndələri şurası.
4. Həbs edilən fəhlələr barəsində.

Ruznameyi-müzakirat dəyişərək, birinci növbəyə məhbus fəhlələr məsələsi keçirilərək aşağıdakı qərarnamə qəbul olunur:

Fəhlə konfransı həbs edilən yoldaşların tutulmasını protesto və bunların buraxılması barəsində təcili təşəbbüsatda bulunmağı təklif edir.

Sonra müştərək müqavilənamə məsələsinə keçərək, uzun-uzadı mübahisədə bir çox natiqlər fəhlələrin fəna halını təsvir edərək, məsələnin bir an əvvəl həllinə çalışmağı tövsiyə edirlər. Nəhayət dörd təklif varid [daxil] olur. Bunlardan əksəriyyəti-ara [səs çoxluğu] ilə zeyldəki [aşağıdakı] təklif qəbul olunur:

Fəhlə konfransının intixab etdiyi [seçdiyi] komisyon tərəfindən mədənçilər[ə] təklif edilən maaş (məvacib) rəqəmlərinin nə olur-olsun qəbulu barəsində israr edilsin. Bu xüsusda fəhlə konfransının gələn iclasınadək (bazar gününədək) mədənçilərlə müzakirata davam edilsin. Əgər bazar gününədək

müzakirat lazım gələn nəticəni verməsə, bazar günkü konfrans iclasında növbətə ümumi tətil məsələsi qonulsun.

Bədəhu [sonra] Parlaman əzasından Qarayev, Tağıyev fabrikası əmələsindən [işçilərindən] olub da konfransa gələn 30 fəhlənin müsəlman olan 10 nəfərinin xidmətindən çıxarılmasını, bu xüsusda Məsai [Əmək] nazirinə xitabən sorğu verilib cavabında onların geri qəbulu haqqında tədbir görüldüyünü öyrənmiş və buna baxmayaraq fəhlələr geri qəbul edilməmiş olduqlarını, bundan sonra Rəisi-vükəla [Baş nazir] həzrətlərinə müraciət edildikdə Tağıyevin qəbul etmək istəmədiyini bildirdiyini bəyan edir. Bu bəyanat nəticəsində konfrans böylə qərar alır: Müsəlman fəhlələrinin Tağıyev fabrikasından qovulmalarını protesto etməklə bərabər, Fəhlə Konfransı Azərbaycan Hökuməti ilə Tağıyevə təklif edir ki, bunların geri qəbulu haqqında təcili binagüzarlıq etsinlər [tədbirlər görsünlər]. Bikar [işsiz] qaldıqları günlərin maaşı verilsin. Əks surətdə bazar günü konfrans bu barədə şiddətli tədbirlər görəcəkdir.

## AZƏRBAYCANDA

**Qalabazar**

*(Lənkəran uyezdi)*

Ərkivan mahalının komissarı Neparidze gürcü olduğuna binaən [görə] xaxollar və malakanlar onu müsəlman tərəfdarı hesab edib, müttəhim etmişlərdir. Dekabr ayının 20-sində gecə zamanı 10 nəfər saldat, zabit ilə Qalabazarına gəlib, komissarı orada görməyib Ərkivan kəndinə gedirlər. Komissar Neparidze, ərkivanlı Qulaməli Qədir oğlunun evində imiş. Orada Qulaməlinin oğlunun toy ziyafətinə dəvət olunmuş imiş. Komissar olduğu evi saldatlar gəlib əhatə edib tüfəng atmağa başlamışlar. Gecənin qaranlıq zamanında tüfəng səsini eşidən camaat, arvad-uşaq və kişilər vahiməyə düşüb, hamıları kənddən qaçıb səhralarda və xəndəklərdə gecəni səhər etmişlər. Komissar Neparidze bir tövrlə onlardan xilas olub Lənkərana qaçmış.

Lənkəran mahalında saldatlar tərəfindən zülüm və sitəm davam edilməkdədir.

*Teymur bəy Bayraməlibəyli*

## GÜRCÜSTANDA

**Batumda**

Tiflisdə nəşr olunan gürcü qəzetələri Batum əhvalını böylə yazırlar:

Batum şəhərini və Batum oblastını 9 nəfərdən ibarət bir şura idarə etməkdədir. Həmin şura sədri, Batum əhalisinə məlum, dava [məhkəmə] vəkili Maslovdur. Məsləkcə bu şəxs sağ kadetlərdən olub, general Denikinin irticapərəstanə fikirinə şərikdir. Vaxtilə məzkur [adı çəkilən] Maslov, saxtakarlığına görə dava vəkilləri cərgəsindən kənar edilmişdi.

Bu şurada rusların iki nümayəndəsi vardır. Ümumiyyətlə, şura heyəti irticapərəstlərdən ibarətdir.

Batumda olan rus xalqı şurası ciddi fəaliyyətdə bulunub, Gürcüstanı dübarə geri almaqdan ötrü Batum şəhərini özlərinə bir üssülhərəkə [baza] qərar

verməк niyyətindədirlər. Bu məqsədlə də məzkur [adı çəkilən] şura, hamı müəssisələrdə öz nüfuzunu möhkəmləşdirməyə və Gürcüstanın hökumət müəssisələri milliləşdikdən sonra Gürcüstandan çıxıb gəlmiş olan rus qulluqçularını Batum müəssisələrində yerləşdirməyə çalışır. Hərçənd, şura əvvəlki qulluqçuları öz qulluqlarına qəbul etmək üçün müəyyən bir qətnamə çıxarmışdır, lakin yenə də rus qulluqçularına tərcih verilməkdədir.

Gürcü müsəlmanlarının maarif komitəsi tədriclə Batum oblastında müsəlman əhalisinin hüsn-təvəccöhünü qazanmaqdadır. Kobuletidə və Acarıstanın başqa yerlərində məzkur komitənin təşəbbüsatı ilə mitinqlər olmuşdur. Batum şəhərində də Bələdiyyə İdarəsi binasında izdihamlı mitinq qurulmuşdur. Hamı mitinqlərdə Batum şurasının fəaliyyəti əleyhinə protesto qətnamələri çıxarılıb, maarif komitəsinə hüsn-rəğbət izhar edilmişdir. Həmin komitə tərəfindən Batumda gürcü və türk dillərində "Musulmanskaya Qruziya" [Müsəlman Gürcüstanı] adında bir qəzetə nəşr edilir. Batumda olan gürcülər məhəlli [yerli] Gürcü Milli Şurası ətrafına cəm olmaqdadırlar. İngilislər daxili işlərə qarışmayırlar. Bu yaxınlarda ingilislər Məhəmməd bəy Abaşidzeyə müraciətlə, oblast idarəsini öhdəsinə almağı təklif etmişlərdir. Fəqət əvvəlcədən bütün oblastı onlarla bərabər gəzməyi lazım görmüşlərdir.

Bələdiyyə İdarəsi ixtiyarında olan şəhər milissiyası 9 nəfərdən ibarət şura əlinə keçmişdir. Təzə milissiya öz vəzifəsini layiqincə ifa edə bilmədiyinə görə, ingilislər küçələrdə öz patrullarını qoymağa məcbur olmuşlardır.

Demokratik dairələrinin səyinə görə keçmiş qlasnıların hüququ özlərinə qaytarılmışdır. Onlar Bələdiyyə İdarəsi işlərində iştirak etməyə başlamışlardır. Təzə seçki işləri hazırlanıb yanvarın 20-də şəhər əhalisinin siyahısı yazılmağa başlamışdır.

* Yanvarın 11-ində Batum klubunda məhəlli [yerli] gürcü Milli Şurası və gürcü müsəlmanlarını azad edici komissiya tərəfindən Parisə getməkdə olan gürcü heyəti-mürəxxəsəsinə [nümayəndə heyətinə] İngiltərə nümayəndələri şərəfinə bir ziyafət çəkilmişdir. Həmin ziyafətdə Çxeidze, Nikoladze, "Musulmanskaya Qruziya" qəzetəsi müdiri Tavuş bəy Xinaşvili, polkovnik Levesni və Qretten-Belev nitq söyləmişlərdir.

## İANƏ

Xəstə türk əsgərləri nəfinə [xeyrinə] idarəmizə, zeyldə mündəric əşxasdan [aşağıda adları yazılan şəxslərdədən] ianə vüsul olmuşdur [çatmışdır]:

Hacı Əlisultan Sultanzadədən (zürufçu) 200 manat;

Məsum Xəlilzadədən (zürufçu) 100 manat.

Cəmi 300 manat.

**Doktor Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Doktor**
**Əliheydər Allahverdiyev**

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

*2603*

**Arvad diş həkimi**
**M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Petroqraddan gəlmiş diş həkimi**
**M. B. Şternin**

Naxoşları qəbul edir səhər saat 9-dan 2-yə kimi və axşam 4-dən 7-yə kimi. Dişlərə və ağza müalicə edir, qızıl və kauçuk üzərində süni dişlər və qızıl qapaqlar qayırır. Dişləri ağrısız kənar edir. Ünvan: Vorontsovski caddədə Sarkisovanın 22 nömrəli evində, Bakı İstiqraz Cəmiyyəti ilə bir cərgədə.

*2642*

**Doktor**
**Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor Samuil İzrailoviç**
**Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. “914” dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

*282*

**Mama M. K. Şerman**

Qəbul edir: mamalıq, ovmaq (massaj) və iynə vurmaq işləri. Həmçinin xəstələrə qulluq etmək işində də təcrübəsi vardır.

Ünvanı: Kolyubakinski küçədə Parapetin qabağında Dildarovun 26 nömrəli evində 2-nci mərtəbədə. Telefon 24-62.

**Elan**
**Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsi**

Həmin yanvar ayının 31-ində cümə günü gündüz saat 12-də Bakı Şəhər İdarəsi (Dumasının) zalında, Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsinin ümumi iclası təyin olun muşdur. Müsəlmanlardan rica olunur ki, vəqti-müəyyəndə [təyin olunmuş vaxtda] iclasa təşrif gətirib üzv yazılsınlar və intixabda [seçkidə] iştirak eyləsinlər.

*Sədr: Mirzə Əsədullayev*

*T-12*

**Hökumət mətbəəsi**

1919-cu il üçün yanvarın 25-i radələrində yeni və əski üsul ilə türk və rus dillərində divar təqvimi buraxacaqdır. Qiymət tək satışda 8 manat, külli surətdə alanlara 60 prosent güzəşt edilir.

Mağazaçılara və külli surətdə alanlara elan ediriz ki, Hökumət mətbəəsi hər cür məktəb dəftərləri münasib qiymətə satışa buraxacaqdır.

Adres: Bakı, Birjevaya küçədə, Skobelevin evində, nömrə 17.

*T-13*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir bəy***

## QEYD VƏ ŞƏRHLƏR

### Fitnələr qarşısında

səh. 379. "…inanmağa haqları olsun…": qəzetdə "…inanmamağa haqları olsun…" getmişdir.

səh. 380. "Nişi-əqrəb nə əz rə kin-əst / İqtizayi-təbiətəş in-əst.": Farsca. Mənası: "Əqrəbin sancması kindən deyil, / Onun təbiətinin ehtiyacı belədir."

### Şurayi-Vükəlada

səh. 381. "Kiçik Şura": Azərbaycan Cümhuriyyəti hökumətində ikinci dərəcəli məsələlərə baxmaq üçün nazir müavinlərindən təşkil olunan şura.

### Qəzetələrdən

səh. 384. "kayzer": 1988-1918-ci illərdə hakimiyyətdə olan Almaniya imperatoru II Vilhelm nəzərdə tutulur.

### Erməni fitnələri

səh. 385. "Azərbaycan" qəzetinin bu müraciəti heç bir əlavə izaha ehtiyac hiss etmədən, sadəcə "Erməni fitnələri" adı ilə dərc etməsi, ermənilərin yalan və həyasızlıqlarının sərhəd tanımadığını göstərmək baxımından olduqca maraqlıdır.

### Şəhər Duması ətrafında

səh. 388. "Kooptasiya": hər hansı bir seçkili orqana, bu orqanın öz qərarı əsasında yeni üzvlərin seçkisiz olaraq əlavə edilməsi.

səh. 389. "…rəcəz oxuyan…": döyüşdən yaxud güləşdən əvvəl pəhləvanların üz-üzə gələrək bir-birlərinə meydan oxumasına "rəcəz oxumaq" deyilirdi.

### Zaman nəyi icab edir?

səh. 391. "payan": son, nəhayət (farsca).

### İanə

səh. 395. "zürufçu": "qab-qacaq satan" deməkdir.